*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 12 iyun 2019-cu il | № 45 (2362) | Qiyməti 30 qəpik

*15 İyun - Milli Qurtuluş Günüdür*

# Milli Qurtuluşdan zəfərə doğru

*Tarixi əhəmiyyəti baxımından dahi tarixi şəxsiyyət Heydər Əliyevin fəaliyyəti təkcə Azərbaycanda deyil, bütün dünyada gedən proseslərlə də bağlı olub.*

Tarixin çətin sınağı ilə qarşılaşanda xalq yeganə və düzgün qərar qəbul etməlidir. 1993-cü ilin iyununda Azərbaycan xalqı öz tarixi müdrikliyinə söykəndi və son dərəcə düzgün qərar qəbul etdi, böyük tarixi şəxsiyyət ümummilli lider Heydər Əliyevi təkidlə respublika rəhbərliyinə dəvət etdi.

1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər Azərbaycanın sabahı üçün ən etibarlı təməl oldu. Müstəqillik, Azərbaycanın suveren dövlət kimi mövcud olması milli-azadlıq hərəkatının nəticəsi idi. Bu müstəqilliyi, dövləti, dövlətçiliyi qorumaq ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması, respublika iqtisadiyyatının dinamik inkişafının təmin olunması, xalqın rifah halının mütəmadi olaraq yüksəlməsi və s. dahi rəhbər Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycana rəhbərliyə qayıdışından başlanır.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini əbədi və dönməz etdi. Ümummilli Liderimiz Azərbaycanın qüdrətli hərbi qüvvələrinin təşkili üçün də böyük işlər gördü, orduya, ölkənin hərbi kadr potensialının gücləndirilməsinə xüsusi diqqət yetirdi.

Hələ Sovet dönəmində respublika rəhbərliyinə gəldiyi ilk gündən Ulu Öndər dövlət siyasətinin digər sahələri kimi hərbi quruculuq məsələlərini də önə çəkmişdi. Müdrik siyasətçi Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK Bürosunun 23 iyul 1971-ci il tarixli qərarına əsasən, xüsusi orta internat məktəbi (indiki C.Naxçıvanski adına Hərbi Lisey) yaradıldı. Bu məktəb ölkəmiz müstəqilliyini bərpa etdiyi ilk günlərdən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin sərəncamına keçdi.



Bu gün ordumuzun zabit heyətinin, demək olar ki, əsasını məhz C.Naxçıvanski adına Hərbi Liseyin məzunları təşkil edir.

Ulu Öndərin dahiyanə idarəçiliyi, güclü strateji bacarığı sayəsində imzaladığı sənədlər ordu quruculuğuna güclü təkan verdi. Ordunun maddi təminatı və təchizatı qısa müddətdə gücləndirildi. Hazırda Ümummilli Liderin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbi müstəqillik dövründə yenidən quruldu. Ümummilli Liderimizin gərgin zəhməti sayəsində təkcə Azərbaycanın deyil, xarici ölkələrin hərbi məktəblərində də ordumuzun zabit korpusunun peşəkarlığının artırılması məqsədilə yüzlərlə təcrübəli mütəxəssis hazırlandı. Bu gün Azərbaycan Ordusunda xidmət edən yüzlərlə zabit ulu öndər Heydər Əliyevin qayğısı sayəsində xarici ölkələrdə - Türkiyədə, Rusiyada akademik təhsil alırlar.

Ümummilli Liderimizin 1998-ci il martın 13-də Naxçıvan Muxtar Respublikasında C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yaradılması haqqında imzaladığı sərəncam Azərbaycanın ordu quruculuğunda mühüm tədbir idi.

Ordu tariximizdə ən mühüm hadisələrdən biri də ulu öndər Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı fərmanla, 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı günün - 26 iyunun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edilməsi ilə bağlı oldu.

Ulu öndər Heydər Əliyevin 1999-cu il fevralın 20-də Azərbaycanda Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması barədə imzaladığı fərman müasir ordu quruculuğu tarixində yeni səhifə açdı.

Azərbaycan Ordusunda kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin yaradılması hərbi quruculuq sahəsində aparılan işlərin davamı idi.

2003-cü il iyunun 26-da Əlahiddə Azərbaycan Korpusunun yaradılmasının 85 illiyi ilə əlaqədar ulu öndər Heydər Əliyev Azərbaycan Ordusunun şəxsi heyətinə müraciətlə deyirdi: "Azərbaycanın güclü ordusu bu gün də, sabah da, 10 il, 100 il bundan sonra da lazımdır. Azərbaycan Ordusu, onun Silahlı Qüvvələri böyük gələcəyə baxmalıdır. Böyük gələcəyin təminatçısı isə yalnız güclü, sarsılmaz ordu ola bilər".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə qətiyyətlə deyirdi: “Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır”.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuzun Avropa və dünya standartlarına tam uyğunlaşdırılması, zabit korpusunun peşəkarlığının, əsgərlərimizin döyüş əzminin, qələbə ruhunun daha da güclənməsi sahəsində səmərəli iş aparılmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğal altında olan torpaqlarımızın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, sülh yolu ilə azad edilməsi xəttini Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olaraq bəyan edir. Belə sülhsevər siyasətə rəğmən Azərbaycan Ordusunun müasir texnikalarla, qurğularla təchiz edilməsinə də xüsusi diqqət yetirir. Bu gün qətiyyətlə deyə bilərik ki, tək silahlanma sahəsində deyil, mənəvi-psixoloji hazırlıq cəhətdən də fərqlənən ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. İrimiqyaslı təlimlər də şəxsi heyətin peşəkarlığının, döyüş bacarığının artırılmasında mühüm rol oynayır, döyüş əzmi və mənəvi-psixoloji ruh yüksəkliyi yaradır. 2016-cı ilin aprelində Qarabağda, ötən ilin mayında Naxçıvanda ordumuzun keçirdiyi əks-hücum əməliyyatları zamanı qazanılan qələbələr dediklərimizin əyani sübutu və bir daha təsdiqidir.

Ali Baş Komandan Aprel döyüşlərinin əhəmiyyətini qeyd edərək bildirirdi ki, Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. "Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir."

**"Azərbaycan Ordusu"**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Türkiyənin Milli Müdafiə naziri ilə görüşüb

*Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimlərində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar ilə görüşüb.

Ali Məclisin sədri Naxçıvana səfərlə bağlı qəbul etdiyi qerara görə Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akara hörmət və ehtiramını bildirib, bu tarixi səfəri muxtar respublikanın həyatında mühüm hadisə kimi dəyərləndirərək deyib: "Azərbaycan-Türkiyə əlaqələrinin əsası xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi dövründə qoyulmuşdur. 1993-cü ildən isə münasibətlərimiz bir millətin, iki dövləti səviyyəsinə yüksəlmiş, ötən dövrdə ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq strateji tərəfdaşlığımız daha da möhkəmlənmişdir".

Ali Məclisin sədri deyib: "Ölkələrimiz arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri vardır. Xüsusilə muxtar respublika ilə qardaş ölkə arasındakı hərbi əməkdaşlıq məmnunluq doğurur. 1997-ci ildən bu günə qədər Naxçıvan Muxtar Respublikasında 600-ə yaxın Türkiyə hərbçisi xidmət keçib. Eyni zamanda, Heydər Əliyev adına Hərbi Liseyi bitirən 80-ə yaxın kursant Türkiyənin ali hərbi məktəblərində təhsillərini davam etdirib. Türkiyə Silahlı Qüvvələri Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərdə dəstəyini əsirgəməmiş, muxtar respublikadakı ordu, birləşmə və hissələrin ərzaq, geyim, əşya, texnika, tibbi avadanlıqlar və dərman vasitələri ilə təminatında təmənnasız köməklik göstərmişdir".

Ali Məclisin sədri göstərilən dəstəyə görə Türkiyə dövlətinə və Türkiyənin Milli Müdafiə nazirinin şəxsində Türkiyə Silahlı Qüvvələrinə minnətdarlıq edib.

Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Naxçıvana səfərini və göstərilən qonaqpərvərliyi yüksək dəyərləndirərək deyib: "Naxçıvan qədim tarixi və müasir inkişafı ilə tamamilə fərqli bir məkandır. Burada olmaqdan böyük məmnunluq duyur və özümüzü doğma Vətənimizdəki kimi hiss edirik. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də dediyi kimi, Naxçıvanda "Bir millət, iki dövlət" olduğumuzun bir daha şahidi olduq".

Hulusi Akar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Ali Məclisin sədrinə çatdırıb, Naxçıvanın inkişafının qardaş ölkədə məmnunluqla qarşılandığını vurğulayıb.

Böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", - fikirlərini xatırladan Hulusi Akar Moskva və Qars müqavilələrinə toxunub, Türkiyənin daim qardaş ölkə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirib, ikitərəfli əlaqələrdən və qarşılıqlı etimaddan danışıb. Qeyd olunub ki, Türkiyə ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında ordu quruculuğu sahəsində əlaqələr hər iki tərəfin səyləri ilə inkişaf etdirilir.

Ali Məclisin sədri Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlıq edib, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə çatdırmağı xahiş edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, ölkəmizin Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim, Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ərkan Özoral və Azərbaycandakı hərbi attaşesi İsmail Hakkı Köseali görüşdə iştirak ediblər.

# HDQ-nin Göyərtə qrupunun NATO standartlarına uyğun qiymətləndirilməsi müvəffəqiyyətlə keçirilib



*Bakıda NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Proqramı çərçivəsində Hərbi Dəniz Qüvvələrinin Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Göyərtə qrupunun "Dənizdə qadağa əməliyyatları" üzrə NATO standartlarına uyğun 2-ci səviyyəli özünüqiymətləndirməsi (SEL-2) keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun Nortvud Hərbi Dəniz Qərargahının nümayəndələrinin müşahidəsi ilə icra edilən SEL-2-in əsas məqsədi Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Göyərtə qrupunun fəaliyyətinin və təchizatının Şimali Atlantika Alyansının standartlarına uyğunluğunu yoxlamaqdan ibarətdir. Keçirilmiş təlim, eyni zamanda, 2020-ci ildə 2-ci səviyyəli (NEL-2) NATO qiymətləndirməsinə hazırlıq məqsədi də daşıyır.

## Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşü keçiriləcək

İyunun 12-də Qəbələ şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Gürcüstanın Müdafiə naziri Levan İzoriya arasında üçtərəfli görüş keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə üçtərəfli formatda əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparılacaq.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Hərbi qulluqçumuz şəhid olub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhə xəttində atəşkəs rejimini kobud surətdə pozmaqla növbəti dəfə təxribat törədib.

İyunun 9-da cəbhənin Tərtər rayonu istiqamətində düşmən tərəfindən açılan atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Xəlilov Elşən Vüqar oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir!

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***11 iyun 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 16 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# “Sarsılmaz qardaşlıq-2019” Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi



*Bu gün Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə, o cümlədən, hərbi əməkdaşlıq sahəsində çoxtərəfli əlaqələr mövcuddur. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra iki ölkə arasında ortaq tarixi və mədəni əlaqələr əsasında çoxistiqamətli Türkiyə-Azərbaycan münasibətləri sürətlə inkişaf edərək tərəfdaşlıq səviyyəsinə çatıb. Türkiyə Azərbaycanı regionda çox əhəmiyyətli bir strateji tərəfdaş olaraq görür və müxtəlif sahələrdə möhkəm təməllərə əsaslanan əhatəli əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün səy göstərir. Bu mənada "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə iki ölkə arasında siyasi, hərbi, iqtisadi, ticari, mədəni, elmi sahədə əlaqələrin bütün istiqamətlərini əhatə edir. Bu gün iki ölkə arasında hərbi əlaqələr yeni müstəviyə qədəm qoyub və strateji perspektivi müəyyənləşdirməkdədir. Hərbi əməkdaşlığın əsasını hərbi təlimlər təşkil etdiyindən Türkiyə ilə birgə hərbi təlimlər Azərbaycan üçün çox böyük əhəmiyyətə malikdir.*

Bu baxımdan Naxçıvanda keçirilən "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təliminin də əhəmiyyəti böyükdür.

Təliminə əsasən Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb.

Təlimə 5000 nəfərədək şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 ədəd təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələri cəlb olunub.

Təlimin məqsədi qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaqdır.

Təlimin planına uyğun olaraq səhra şəraitində açılmış komanda məntəqələrindən idarəetmə sistemləri vasitəsilə döyüşün təşkili və aparılması zamanı yaranmış müxtəlif şəraitlərdə qoşunların fasiləsiz idarə olunması praktiki həyata keçirilib. Birləşmə və hissələr döyüşə hazırolma planlarına uyğun olaraq fəaliyyət göstərib.

“Sarsılmaz qardaşlıq-2019” Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi çərçivəsində qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar xəritə üzərində icra olunub. Hərbi qərar qəbuletmə prosesinə uyğun tapşırığın aydınlaşdırılması, vəziyyətin qiymətləndirilməsi, döyüş işinin və qarşılıqlı əlaqənin təşkili sualları işlənilib.

İyunun 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimini izləmək üçün Naxçıvan şəhərinə gəlib.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar ilə Naxçıvanda görüşüb.

Əvvəlcə türkiyəli nazir Naxçıvan şəhərinin mərkəzində ucaldılan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi önünə əklil qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Sonra H.Akar Mustafa Kamal Atatürkün büstünü də ziyarət edib və önünə əklil qoyub.

Türkiyənin nümayəndə heyəti Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın məzarlarını ziyarət edərək gül dəstələri qoyub.

Türkiyə Respublikasının Milli Müdafiə nazirinin Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordunun Qərargah binasının qarşısında rəsmi qarşılanma mərasimi keçirilib. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyənin Milli Müdafiə nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fəxri qarovulun rəisi raport verdikdən sonra Türkiyənin və Azərbaycanın Dövlət himnləri səsləndirilib.

Türkiyənin Milli Müdafiə naziri "Xatirə kitabı"nı imzalayıb.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Müdafiə naziri qonaqları salamlayaraq Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin daim inkişaf etdiyini və ölkələrimizin maraqlarına cavab verdiyini vurğulayıb.



General-polkovnik Zakir Həsənov xüsusi qeyd edib ki, Azərbaycan müdafiə qüdrətinin artırılması məqsədilə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində Türkiyə ilə əməkdaşlığı genişləndirir və bu, regiondakı sabitliyi təmin edən əsas amillərdəndir.

Türkiyəli nazir öz növbəsində ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin, o cümlədən səmərəli əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib. Qonaq hər iki ölkənin müxtəlif qoşun növlərinin iştirakı ilə keçirilən birgə hərbi təlimlərin, hərbi mütəxəssislərinin qarşılıqlı səfərlərinin, görüşlərinin əhəmiyyətindən danışıb.

Tərəflər Naxçıvanda keçirilən "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimində əldə olunan nəticələri yüksək qiymətləndirərək bu cür təlimlərin vacibliyini vurğulayıblar.



Görüşdə regional və qarşılıqlı əməkdaşlıqla bağlı digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

İyunun 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar ilə birgə Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan şəhərində yerləşən hərbi hissəsində və Təlim-Tədris Mərkəzində olublar.

Nazirlər şəxsi heyətin döyüş hazırlığı, sosial-məişət şəraiti ilə tanış olub, hərbi hissənin sərəncamında olan yeni silah və hərbi texnikaya, eləcə də bir sıra hərbi infrastruktur obyektlərinə baxış keçiriblər.

Sonra Müdafiə nazirləri Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseyi ziyarət ediblər.

Qonaqlar hərbi təhsil müəssisəsi ilə tanış olublar. Vurğulanıb ki, dövlət rəhbərliyinin himayəsi və yüksək qayğısı ilə liseydə ən müasir şərait yaradılıb. Burada kursantların təhsili ilə yanaşı, sosial müdafiəsi və vətənpərvərlik tərbiyəsi də daim diqqət mərkəzindədir.

Daha sonra liseyin pedaqoji kollektivi və kursantlarla görüşən nazirlər tədris korpusunda və yataqxanada yaradılan şəraitlə tanış olublar.

* * *

Bu təlim də təsdiqlədi ki, əvəzsiz müttəfiqlər olan Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı tarixi köklərə söykənən, çətin sınaqlara sinə gərən, eyni millətə, eyni dilə, eyni dinə sahib olan iki xalqın arasındakı ən ali hisslərdən bəhrələnir, ondan güc alır. Bu təlim həm də Türkiyə və Azərbaycan birliyinin bariz nümunəsinin möhtəşəm təntənəsidir. Dərin tarixi kökləri olan möhkəm tərəfdaşlıq münasibətləri bundan sonra da yeni uğurlara, yeni zəfərlərə yol açacaq.

"Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimindən növbəti sayımızda da əlavə materiallar dərc edəcəyik.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin növbəti qrupu ilə görüş keçirilib

*İyunun 8-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Qarabağ müharibəsi əlillərinin bir qrupu ilə görüş keçirilib.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə iştirak edən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev nazirliyin rəhbərliyi adından veteranları salamlayıb. O bildirib ki, Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ilə görüşlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin daim diqqət mərkəzindədir.

Azərbaycan Ordusunun əldə etdiyi nailiyyətlər, şəxsi heyətin döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyəti, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar barədə danışan nazir müavini bildirib ki, ordumuz hər an Ali Baş Komandanın əmrlərinə hazırdır.

Tədbirdə qeyd olunub ki, ordu və cəmiyyət təmaslarının qurulmasının əsasını bu cür görüşlər təşkil edir. Müharibə əlilləri, şəhid ailələri və müharibə veteranlarının dövlət, xalq qarşısında böyük xidmətləri olduğu, bu kateqoriyadan olan vətəndaşlara cəmiyyətdə daim diqqət və qayğı göstərildiyi, eyni zamanda, onların dövlətin etibarlı sosial müdafiə sistemi ilə əhatə edildiyi də vurğulanıb.

General-leytenant K.Vəliyev bildirib: "Dövlətimizin ərazi bütövlüyünün müdafiəsi uğrunda döyüşlərdə fiziki sağlamlığını itirmiş vətəndaşların, hərbi xidmət dövründə vəzifə borclarını yerinə yetirərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin əsas istiqamətlərindən biridir.

Sizlər Qarabağ döyüşlərində rəşadətlə vuruşmusunuz. Bütün bunlar isə hər zaman hərbi qulluqçularımıza nümunədir. Ali Baş Komandanımızın da dediyi kimi: "Müharibə zamanı şəhid olmuş, öz sağlamlığını itirmiş vətəndaşlarımız cəmiyyətin dəyərli insanlarıdır, bizim qəhrəmanlarımızdır. Biz sizinlə fəxr edirik".

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısından danışıb. Ulu Öndərimiz tərəfindən əsası qoyulan bu siyasətin bu gün də ölkə başçısı tərəfindən uğurla davam etdirildiyini bildirib.

Digər çıxış edənlər Ali Baş Komandanın rəhbərliyi altında işğal olunmuş torpaqlarımız uğrunda döyüşlərə hər zaman hazır olduqlarını bildiriblər. Onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda tədbir iştirakçılarına Ali Baş Komandan adından mükafatlar təqdim edilib və bildirilib ki, veteranlarla bu cür görüşlər müxtəlif qruplar tərkibində mütəmadi olaraq keçiriləcək və onların problemlərinin həlli istiqamətində müxtəlif müzakirələr aparılacaq.

# Dağlıq Qarabağın azərbaycanlı icması beynəlxalq təşkilatlara daha bir çağırış ünvanlayıb

Ermənilərin işğalı altında olan ərazilərdə Azərbaycan xalqının milli irsinin məhv edilməsinə göz yummayın!

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması erməni işğalı altında olan ərazilərimizdə məhv edilən tarixi, mədəni, dini irsimizlə bağlı beynəlxalq auditoriyaya daha bir çağırış ünvanlayıb. Sosial medianın tələbləri nəzərə alınmaqla ingilis dilində hazırlanan video müraciət bu dəfə də Azərbaycan hökumətinin qərarı ilə "Azərbaycandakı tarixi abidələrin milli qeydiyyatı" siyahısına daxil edilən Bakıdakı erməni kilsəsindən bəhs edir.

Bu barədə AZƏRTAC-a "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyindən məlumat verilib.

Video müraciətdə Azərbaycan xalqının multikulturalizm ənənələrinə sadiq qaldığı vurğulanaraq bildirilir ki, Bakının mərkəzində erməni kilsəsi və bu kilsəyə aid olan ədəbiyyatlar qorunub saxlanıldığı halda Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və işğal altında olan ətraf rayonlarda tarixi, mədəni, dini abidələr məhv edilir, qədim məscidlərin üzərilərindəki daş kitabələr dəyişdirilərək onların tarixi saxtalaşdırılır. Ermənilər hətta XIX əsrdə Şuşada rus hərbçiləri üçün tikilmiş pravoslav kilsəsinin arxitekturasını dəyişərək özününküləşdiriblər. Beynəlxalq təşkilatların və onların rəhbərlərinin ünvanlarına göndərilən müraciətdə əsas məqsəd diqqəti ermənilərin vandal hərəkətlərinə yönəltmək, işğal altında olan ərazilərimizdə tarixi, mədəni abidələrimizin dağıdılmasına son qoymağa nail olmaqdır.

# "Marş İrəli" hərbi vətənpərvərlik düşərgəsi yenidən təşkil ediləcək

"İrəli" İctimai Birliyinin və Azərbaycan Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə açıq hava şəraitində baş tutan "Marş İrəli" hərbi vətənpərvərlik düşərgəsi ikinci dəfə keçiriləcək.

Birlikdən AZƏRTAC-a bildiriblər ki, layihənin məqsədi ölkəmizdə gənclərin hərbi vətənpərvərlik ruhunun gücləndirilməsi, onların Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və qorunmasına hər an hazır olmaları istiqamətində görülən işlərə dəstək verməkdir. Bundan başqa, informasiya müharibəsində gənclərin yaxından iştirakının təmin olunması, onların asudə vaxtının səmərəli təşkili, gənclər şəbəkəsinin genişləndirilməsi də layihənin əsas hədəflərindəndir.

"İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov bildirib ki, müharibə vəziyyətində olan ölkəmizdə gənclər arasında təbliğat işi intensiv aparılmalıdır. Gənclər doğru istiqamətə yönləndirilməli, onların məlumat bazası genişləndirilməli, bilikləri artırılmalıdır. Sayca ikinci dəfə təşkil olunacaq "Marş İrəli" layihəsinə maraq kifayət qədər böyükdür.

On günə yaxın müddətdə keçiriləcək layihə çərçivəsində gender bərabərliyi təmin olunmaqla respublikanın müxtəlif regionlarından müsahibə əsasında seçiləcək 17-25 yaşlı 150-dək gənc iştirak edəcək. Layihə çərçivəsində tapşırıq və oyunlarda gənclərin fiziki dözümlülüyü yoxlanılacaq. Bundan başqa, təşkil olunacaq motivasiya xarakterli görüşlər, seminarlar, simulyasiya oyunları da onların biliklərinin artırılmasına töhfə verəcək. Gənclər kəşfiyyat bölüyünün maneələri dəf etməsi, hündürlükdən tullanma üsulları, düşmən səngərinə hücum təlimləri ilə əyani tanış olacaqlar. İştirakçılara taktiki, qarovul, atəş, komandir və digər hərbi hazırlıqlar, hərbi topoqrafiya və s. mövzular barədə də məlumat veriləcək.

Layihə çərçivəsində gənclər ekstremal şəraitdə qalaraq bir sıra sosial və idman fəaliyyətlərində iştirak edəcəklər. Onlar üçün mütəxəssislərin iştirakı ilə təlim-məşq toplanışları, fiziki və əqli tapşırıqlar, ekspert və qonaqlarla görüşlər və müzakirələr təşkil olunacaq.

# Heydər Əliyev adına AAHM kursantlarının dövlət imtahanları keçirilir



*Səhra təlim mərkəzində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin motoatıcı ixtisası üzrə 4-cü kurs kursantlarının dövlət imtahanları keçirilir. Kursantlar dörd təhsil ili müddətində hazırlıq keçərək qazandıqları bilik və bacarıqları nümayiş etdirirlər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, gələcəyin zabitləri sinif otaqları və xüsusi hazırlanmış məntəqələrdə ixtisasları və rəhbəredici sənədləri bilmələri üzrə nəzəri, çöl şəraitində isə taktiki və atış hazırlığı, döyüş texnikasının istismarı, müxtəlif çaplı silahların təyinatı və sökülüb-yığılması üzrə praktiki imtahanlar verirlər.

# H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi ziyarət olunub



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasının strateji araşdırmalar və dövlət müdafiəsini idarəetmə akademik kursunun rəhbər heyəti və dinləyiciləri H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini ziyarət ediblər. Qonaqlara məktəbin ümumi fəaliyyətinə dair geniş brifinq təqdim edilib, onlar məktəbin madditexniki təminat, silah və atış, eləcə də digər kafedralarda olan maddi-texniki baza ilə yaxından tanış olub və atıcı silahlardan praktiki atışlar icra ediblər.




Görüşün yekununda xatirə şəkli çəkdirilib.

## Hərbi hissədə disput

# "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır"

*Sözlər də, fikirlər də düşüncələr üçündü. Kəlam qüdrətində olmayan söz-fikir, belə söz-fikirlərdən ibarət fikir düşüncələrə hopa bilmir. Belə fikirlər ictimaiyyət üçün maraqlı deyil. Düşüncələrə hopan söz-fikir yaşarı, bəlkə də bəşəri kəlamlardı. Belə kəlamlar vətəndaşın fəaliyyətini dövlət üçün, dövlətçilik üçün gərəkli məcraya yönəldir. Bu fikirlər orduya, ordu quruculuğuna da aiddir.*

Vətəndaşların nələrəsə münasibətləri fərqli ola bilər. Vətən hamımızın Vətəni, dövlət hamımızın dövləti, ordu hamımızın ordusu olduğu üçün bu üç məfhuma - Vətənə, dövlətə, orduya isə yox.

Hərbi hissəyə bir-birindən fərqli iki düşüncəylə gedirik. Biri hərbi hissədə səslənəcək fikirlərin tədbirlə necə əlaqəli olacağına maraqla bağlıdı, biri bilavasitə tədbirin mahiyyətiylə...

Son illərdə ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatlar da, genişmiqyaslı təlimlər də şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını əhəmiyyətli səviyyədə yüksəldib. Belə yüksəlişin nəticəsidir ki, ordumuz nəinki bölgədə, dünya miqyasında ən güclü ordular sırasındadır...

Vəzifəsindən, rütbəsindən asılı olmayaraq hər bir hərbi qulluqçu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tövsiyələrini, göstərişlərini, tələblərini, əmrlərini böyük məsuliyyətlə yerinə yetirir, vahid bir amalla xidmət edir: torpaqlarımızı işğaldan azad edəcəyik! Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən keçirilən tədbirlər mahiyyəti etibarilə bu amalın tərkib hissələrindəndir...

Hər bir hərbi qulluqçu üçün Vətən, dövlət, xalq ucalığı var. Bu ucalıq hərbi xidmət anlayışı ilə ömür anlayışını məfkurə baxımından eyniləşdirir. Disput bu eyniləşdirmənin əsgər düşüncəsinin nəticəsi olması istəyiylə təşkil edilib. Hərbi hissədə disput üçün seçilən "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" mövzusu Müdafiə naziri general-polkovnik Zakir Həsənovun yaşarı, bəşəri kəlamından iqtibasdır...

Disputa bu xatırlatma ilə başlayırıq.

İştirakçılara xitabən "Disputa mövzu seçdiyimiz kəlam ömür dediyimiz illərə də təsir göstərə bilir", - deyirəm. Onu da deyirəm ki, "Azərbaycan Ordusu" qəzetinin təşəbbüsü ilə keçirilən bu disputun şəxsi heyətin mənəvi-psixoloji hazırlığında müəyyən qədər əhəmiyyətli olacağına inanırıq, buna əminik, siz də əmin olun. Disput müzakirədir, əsaslandırılmaqla müəyyən fikirlər səsləndirməkdir. Fəal olacağınıza inanırıq.



Baş leytenant Bünyad İsayev dedi ki, hərbi xidmət vətəndaşlıq borcudur. Kişi cinsli hər bir vətəndaş bu borcu yerinə yetirməlidir, yerinə yetirir. Bu borc Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tövsiyəsi - Vətənə, xalqa, dövlətə xidməti ömrün mənası bilin - əsasında yerinə yetirilməklə daha da müqəddəsləşir...

Qəhrəmanlar (Vəzir Orucov, Şirin Mirzəyev, Yusif Mirzəyev, Rasim İbrahimov, Etibar Hüseynov, Mübariz İbrahimov, Samid İmanov, Raquf Orucov, Çingiz Qurbanov və b.), şəhid hərbçilər ömrün mənasını Vətənə, xalqa, dövlətə xidmət bilib döyüşürdülər. 2016-cı ilin Aprel döyüşləri, qazanılan böyük qələbə təsdiqlədi ki, hər bir hərbi qulluqçu qələbə üçün döyüşürdü, ömrünün mənasını Vətənə, xalqa, dövlətə xidmətdə görüb döyüşürdü.

Zabitin sözünə qüvvət kimi deyirəm ki, ömür olumdan ölümə qədərki zaman deyil. Ömür Vətən üçün, xalq üçün, dövlət üçün yaşanılan aylardı, illərdi. Vətən üçün, xalq üçün, dövlət üçün yaşanılan ömürlərin başlanğıcı olur, sonu olmur. Şəhid ömrü belə işıqlı ömürdü. Bu işıq əbədiyyətin cığırdaşıdı.

Disputa giriş kimi səslənən bu fikirlər mövzu ətrafında səfərbər etdiyi əsgərlərin düşüncələrini "tərpədir". Bu tərpənişi hiss etmək çətin deyil...

Əsgər Azər Qənbərli dedi:

- Çağırışçı hərbi xidmətə müəyyən biliklərlə, müəyyən dünyagörüşlə gəlir. Hərbi xidmətdə yeni biliklər, vərdişlər əldə edirik. Bu biliklər hərbi biliklərdir, vərdişlər hərbi vərdişlərdir. Hərbi xidmətə gələnə kimi nəyi qoruyacağımızı bilirdik, necə qoruyacağımızı hərbi xidmətdə öyrəndik. Hərbi xidmətdə həm də Vətənin, dövlətin nə olduğu haqqında düşüncələrimiz genişləndi, dərinləşdi. Vətən kəlməsinin ifadə etdiyi məzmunu daha əhatəli dərk etdik. Məhz buna görə hərbi xidməti də Vətən qədər müqəddəs bilirik. Ömrümüz, əlbəttə ki, hərbi xidmət dövründə də, tərxis olunduqdan sonra da müqəddəs Vətənə müqəddəs xidmət üçündü...

Əsgərlərə baxıram. Azər Qənbərlinin dediklərinin onların düşüncələrinə necə hopduğunu hiss etmək, sezmək çətin deyil; maraq istəyin, istək niyyətin, amalın başlanğıcıdı. Duyduqlarım, sezdiklərim başlanğıc deyil, davamdır. Hiss olunur ki, hərbi xidmətin ayları səmərəli keçib. Bu səmərə həm də düşüncələrdədi. Hərbi xidmətin ilk günləriylə andiçmənin səhərisi arasında kifayət qədər fərq olduğunu heç kim inkar edə bilməz. Bu fərqin mahiyyəti Vətən sevgisidi. Hərbi xidmətin hər günü bu sevgini bir az da dönməzləşdirir. Azərbaycanın dövlətçilik tarixi min illərlə səsləşir. Ulularımız min illərlə Vətən olan ərazini Dədə Qorqud öyüdüycə qoruyub. Beyrəkləşərək qoruyub, Qaraca Çobanlaşaraq, Qazan xanlaşaraq, Bəkilləşərək, qoruyub, ... , Xətailəşərək, Cavad xanlaşaraq, ... qoruyub.

Əsgər Xətai Mehdiyev dedi:

- Orta məktəbdə oxuyanda "Haradan başlanır Vətən?" mövzusunda biz də inşa yazmışıq. Hərə öz düşündüyünü yazıb. Bu sualı biz də çox eşitmişik, bu suala verilən cavablardan da xəbərdarıq. "Azərbaycan Ordusu" qəzetində dərc edilən məqalələrdən birində "Vətən əsgər ürəyindən başlayır" fikri bizim hər birimizin gücünə güc verdi. Bu fikri "Haradan başlanır Vətən?" sualına ən dürüst, ən məntiqli cavab bilirik. Vətənin başlanğıcı, həqiqətən, əsgər ürəyidi. Səngərin nə olduğunu bilənlər üçün belədi...

Baş leytenant Bünyad İsayev əsgərin fikrini bəyəndi və onun davamı kimi dedi:

- Əslində Vətən kəlməsi üçün nəhayət, son anlayışı yoxdu. Ancaq yenə deyə bilərik ki, Vətənin başlanğıcı da, nəhayəti də əsgər ürəyidi. Hərbi xidmət, deməli, əsgər Vətən üçündü. Əsgər ürəyinin müəyyənləşdirdiyi ömür Vətən üçün, xalq üçün, dövlət üçün yaşanılmalıdı.

Hamı kimi əsgər Xətai Mehdiyev də baş leytenantın sözə müdaxiləsini məmnunluqla dinlədi və fikrini belə tamamladı:

- Biz məhz belə xidmət edirik. Azərbaycanda hərbi xidmət həmişə belə olacaq.

Disput, müzakirə fikir mübadiləsidi. Belə mövzularda fikir ayrılığı olmur, ola da bilməz. Həmkarım Mübariz Musayev əsgərin sözünə qüvvət kimi dedi ki, müqəddəsliyi hamı dərk edirsə, müqəddəsliyə hamının münasibəti müqəddəsdirsə, sənin, sənin timsalında əsgər yoldaşlarının belə qənaəti istər jurnalist kimi, istərsə də vətəndaş kimi bizi əmin etdi ki, güclü Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmrinə hazırdır, torpaqlarımızı işğaldan tamamilə azad etməyə qadirdir...

Əsgər Xətai Mehdiyevin fikirləri mənə bir şeirin bir misrasını xatırlatdı: "Vətən, səndən ayrı ömrü neylərəm?". Məzmunlu deyilib. Bu misra həm disputun mövzusuyla səsləşir, həm də onun mahiyyətini poetik baxımdan tamamlayır, deyirəm.

Baş leytenant Bünyad İsayev dedi ki, Vətən sevgisinin bu səviyyədə anlaşılması vətəndaşın mənəvi kamilliyidir.

Gizir Tofiq Aslanov dedi ki, Vətənin nə olduğunu bu səviyyədə dərk etməyən nümunəvi əsgər ola bilməz. Nümunəvi əsgər deyilsənsə, yaxşı vətəndaş deyilsən.

Əsgər Vüsal Qədirli əsgər dostunun fikrinə maraqlı fikir bildirdi. Bu müdaxilə həm tədbirin tələbi kimi gözəldi, həm də fəallıq kimi hamımıza könül xoşluğu verdi:

- Yaxşı vətəndaş olmayan yaxşı oğul deyil.

Səmimi, məzmunlu, düşündürücü mükalimələşmədi. Düşünə-düşünə əsgər düşüncəsiriylə qürurlanırıq - əsgərlərin nə gözəl düşünür, Vətən, qürurlana-qürurlana düşünürük - bu duyum, bu duyğu sənin mənəvi kamilliyinin təsdiqidi, Azərbaycan əsgəri!

Əsgər Emin Məmmədov dedi:

- Yaxşı oğul deyilsənsə, ömür sənə haramdı!

"Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" mövzusunda "N" hərbi hissəsində təşkil olunan diskussiya mənəvi kamillik üçün az qala düstur kimi qəbul ediləsi bir fikirlə tamamlanır: Vətənə, xalqa, dövlətə xidmət ömrünün mənası deyilsə, ömür sənə haramdı...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.

**Suallar:**

**1. Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir.**

**2. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.**

*Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir*

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Dünya iqtisadiyyatına uğurla inteqrasiya, ölkə daxilində iqtisadi liberallaşma, kredit reytinqimizin artması, iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir.

Ulu Öndərin vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində dahi şəxsiyyət Heydər Əliyevin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması onun misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

Ümummilli Liderin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Xalqımızın Ümummilli Liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi Vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz əbədiyaşar liderin fəaliyyətinin nəticəsidir.

Ulu Öndər öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi portreti bütün dünyada məşhurdur. O, peşəkar siyasətçidir. 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdir. Orada elmi-pedaqoji fəaliyyətə başlamış (1982), aspirant, müəllim olmuşdur. Tarix elmləri namizədidir (1985). 1991-ci ildən Moskvada "Oriyent" şirkətinin baş direktoru işləmiş, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti (1994-cü ildən) və birinci vitse-prezidenti (1997-ci ildən), Azərbaycan Respublikasının baş naziri (2003) vəzifəsində çalışmışdır. Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur.

İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev həm də görkəmli partiya xadimidir. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının (YAP) lideridir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü olmuş İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti doğma xalqa qətiyyətlə və cəsarətlə xidmət etmək nümunəsidir. Onun AŞPA-dakı məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına güclü təsir göstərmişdir. Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağ haqqında, qondarma "Dağlıq Qarabağ problemi" barədə Qərb dünyasında obyektiv rəy formalaşmış, həmin münaqişəyə düzgün siyasi qiymət verilmiş, onun həlli yolunda mühüm addımlar atılmışdır. O, AŞPA-nın vitse-spikeri və Büro üzvü seçilmişdir (2003, yanvar).

İlham Əliyev ulu öndər Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir. 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan İlham Əliyev az vaxt içərisində həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərmişdir. Onun yorulmaz və gərgin əməyi sayəsində, qısa müddət ərzində, Azərbaycan idmanı ayağa qaldırılmış, dünya şöhrəti qazanmışdır. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurlar İlham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük siyasi qələbəsidir.

Hazırda Azərbaycanın beynəlxalq yarışlarda, idmanın müxtəlif sahələrində ön mövqelərə çıxması, Bakının dünya üzrə mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsi Azərbaycanın şöhrətini daha da artırır, onun beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Bu, İlham Əliyevin gənclər siyasətinin ən böyük uğurlarından biridir.

Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə alınaraq İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur. O, 2003, 2008, 2013 və 2018-ci illərdə prezident seçkilərində parlaq qələbə qazanaraq xalqın iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır.

Dünya siyasətində Azərbaycan xalqını yüksək səviyyədə təmsil edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün dünya tərəfindən qəbul olunan görkəmli və müasir dövlət xadimidir. O, doğma Azərbaycanda xalq arasında böyük sevgiyə, hörmətə və nüfuza malik bir rəhbərdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu illər ərzində xalqı üçün gördüyü əvəzedilməz işlər xalqın böyük rəğbətinin qazanılmasına səbəb olaraq onun növbəti dəfə prezident seçkilərində inamlı qələbəsinə zəmin yaratmışdır. Bu seçkilərdə Azərbaycan xalqı növbəti dəfə Heydər Əliyev kursuna sadiq olduğunu sübut etdi.

Bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev demişdir: "Ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Artıq bu istiqamətdə çox böyük dəyişikliklər mövcuddur və bu proses davam edəcəkdir. Azərbaycanın müdafiə potensialı güclənəcəkdir. Bu, bizim strateji xəttimizdir. Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm, nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Azərbaycan Respublikası Prezidentinin hələ 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Ordusunun hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və ordunun peşəkar zabit kadrlarına olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına yeni Hərbi Lisey yaradılmışdır.

Bu gün ərazisinin 20 faizi işğal altında olan, mühüm geostrateji məkanda yerləşən və zəngin yeraltı və yerüstü sərvətlərə malik Azərbaycanın ordusu döyüş qüdrətini artırmaqla Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qarşıya qoyduğu hər bir tapşırığı yerinə yetirməyə həm peşəkar, həm də mənəvi-psixoloji baxımdan hazır olmaq üçün güc və iradəsini əsirgəmir. Tam əminliklə demək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və təhlükəsizliyinin qarantı olan Azərbaycan Ordusu günü-gündən möhkəmlənir və mətinləşir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Füzuli rayonunun ərazisindəki "N" hərbi hissəsinin əsgər və zabitləri ilə görüşündə demişdir: "Azərbaycan bölgədə ən güclü orduya malik olan ölkədir. Burada bütün cəhətlərdən - həm peşəkarlıq baxımından, həm də texnika baxımından ən güclü hərbi potensial bizdədir, ən güclü ordu bizdədir".

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Azərbaycan hərbi potensialını genişləndirmək üçün özünün sürətlə artan iqtisadi imkanlarından hərtərəfli şəkildə bəhrələnməlidir və bu iş lazımi səviyyədə həyata keçirilməkdədir. Ən inkarçı mövqedə dayanan qüvvələr və fərdlər də artıq etiraf edirlər ki, sabitlik, dinamik inkişaf və güclü ordu quruculuğu müasir Azərbaycan üçün əsas xarakterik cəhətlərdir və bu cəhətlər bir-birilə sıx bağlıdır. Güclü iqtisadi inkişaf, gəlirlərin durmadan çoxalması hərbi xərclərin ilbəil artmasına imkan verir. Lakin ordu quruculuğu elə bir spesifik sahədir ki, burada iş yalnız iqtisadi imkanlardan kifayət qədər bəhrələnməklə bitmir. Azərbaycan öz ordusunun gücünü, kadrların hərbi peşəkarlığını daim artırır, hərbi qüdrətini yüksəldir. NATO ilə sıx və səmərəli əməkdaşlığın əsas hədəfi də məhz ordu quruculuğu prosesini sürətlə təkmilləşdirmək və müasir standartlara uyğunlaşdırmaqdır. Yekun məqsəd, başlıca niyyət isə, heç şübhəsiz, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, Qarabağın və ermənilərin zəbt etdikləri bütün bölgələri düşməndən təmizləməkdir.

Bu gün şanlı ordumuzun gücünü göstərən qələbəyə görə işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri və Naxçıvan əməliyyatında əldə etdiyimiz uğurlar və ordumuzun təmas xəttindəki üstünlüyü bunun bariz nümunəsidir. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından bu döyüşlər bir daha göstərdi ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirməyə və ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Nəsillərə nümunə*

# Veteranların döyüş yolu gənclərimizə örnəkdir

*Böyük Vətən müharibəsindən neçə onillər keçir. O döyüşlər də unudulmur, o döyüşlərin iştirakçıları da. Böyük tarixi şəxsiyyət Heydər Əliyev veteranlara xüsusi diqqət göstərirdi. Onlara bu duyğusal münasibət daha əhatəli şəkildə davam etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev veteranların qayğılarının, problemlərinin həlli istiqamətində müvafiq sərəncamlar imzalayıb.*

**"Azərbaycan Ordusu"**



**Sosialist Əməyi Qəhrəmanı Səfər Abdullayev:**

- Mən, 1925-ci il yanvarın 5-də Xızı rayon Tudar kəndində anadan olmuşam. Müharibənin ağrı-acısını erkən yaşlarımdan hiss etmişəm. Bakıda Salyan kazarmasında 6 aylıq snayper kursunda oxuyandan sonra döyüşən cəbhəyə göndərildik. 1942-ci ildən 1945-ci ilədək 1-ci və 2-ci Belorusiya cəbhələrində marşallar K.Rokosovski və G.Jukovun komandanlığı altında döyüşürdük. Çox ağır və dəhşətli müharibə idi.

65-ci ordunun 354-cü atıcı diviziyasında snayper olmuşam, Çapayev pulemyotunu idarə etmişəm. 1943-cü ilin payız aylarında diviziyanın tərkibində faşistlərin işğalında olan Yaltanı, Simferepolu, Dnepr çayının sahillərindən, Belorusiyanın Qomil, Lutisk, Sulitski şəhərlərindən keçərək, Belorusiyanın azad edilməsində iştirak etmişəm. 1944-cü ilin oktyabrında bütün Sovetlər İttifaqı alman-faşist işğalçılarından azad olundu. Artıq müharibə Şərqi və Qərbi Avropa torpaqlarında gedirdi. 1944-cü ildə 218-ci ehtiyat polkun tərkibində Moldaviyanın faşistlərdən azad edilməsində iştirak etdim. 1945-ci il yanvarın 13-də xidmət etdiyim polkla Venqriyadan keçərək, faşist işğalçılarını Polşa ilə Almaniyanın sərhədlərinədək qovduq. Artıq müharibə Polşa ilə Almaniyanın sərhədlərində gedirdi. 1945-ci il yanvarın 14-də Sovet qırıcı təyyarələri faşistlərin sərhəddə yerləşdirdikləri qüvvələrinə ağır zərbələr endirdi. Çoxlu sayda faşist işğalçıları öldürüldü və əsir alındı. Bu döyüşdə mən də ağır yaralandım. Polşada hospitallarda yerləşdirildik. Sonra bizi Vladimrsk vilayətinin Kavrov şəhərindəki hospitala gətirdilər. Marşal Jukov ağır yaralılarla görüşürdü. Bizimlə də görüşdü. Yaralıların adlarını qeyd etdilər. 1945-ci ilin yanvarından avqustunadək hospitalda müalicə aldım. O ağır müharibə illərindən 74 il keçsə də, vurduğu yaralar hələ də sağalmır. Xalqımız müharibə cəbhələrində həlak olan soydaşlarımızı illər ötsə də, unutmur, xatirələrini əziz tutur.

**İsmayıl Fərəcov:**

- Mən 1924-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda dünyaya gəlmişəm. 1942-ci ildə hərbi xidmətə çağırıldım. Kazım İsmayılovun rəhbərlik etdiyi 77-ci Stavropol diviziyasında kəşfiyyatçı idim. Mozdokdan Berlinə kimi döyüş yolu keçdim. O ağrı-acılı günləri sanki dünən olmuş kimi xatırlayıram. Kəşfiyyatçı kimi tez-tez düşmən arxasına keçdiyimiz üçün çətin vəziyyətlə üz-üzə qalırdıq.

Alman ordusunun dərinliklərinə kimi gedib çıxmışdıq. Ot tayasının içində gizlənib müşahidə aparırdıq. Sovet qırıcıları o ərazini bombalamağa başladı. Xeyli düşmənin məhv olduğu o anlarda yaralandım. Kürəyimdən də yara almışdım. Bunlara baxmayaraq lazımi məlumatları toplayaraq geri döndük.

Kəşfiyyat çıxışlarımızdan birində Dnepr çayını keçirdik ki, almanlar bizim gəldiyimizindən duyuq düşüb atəşə tutdular. Müdafiəmiz zəif olduğundan geri qayıtdıq. Onda itkilərimiz çox olmuşdu. Növbəti dəfə yenə getdik və mövqe qələbəsi qazandıq.

Müharibənin hər anı ölümdü, dəhşətdi... Gecə-gündüz vuruşurduq. Qışda əziyyətimiz daha çox olurdu...

Qolumda 75 ildir gəzdirdiyim bu saat Stavropol döyüşlərindən yadigardır. Hər dəfə ona baxanda müharibəni və silahdaşlarımı xatırlayıram.



İllərdir Nəsimi rayon veteranlar təşkilatının sədriyəm. Daim ictimai işlərdə, əhali arasındayam. Gənclərimizlə görüşlərdə onlara Vətənin insan üçün nə dərəcədə müqəddəs olduğunu bildirirəm.

Biz veteranlara xüsusi diqqət və qayğı hisslərinin əsasını ümummilli liderimiz Heydər Əliyev qoydu. Ulu Öndər deyirdi: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".

Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən dövlət başçımız İlham Əliyev bizim qayğımıza daim qalır.

Bir əsrə yaxın yaşadığım bu həyatda mənim ən böyük arzum doğma Vətənimdə Qələbə müjdəsi almaqdır. Ordumuzun Aprel döyüşləri, Günnüt zəfəri, keçirilən hərbi paradlar onu deməyə əsas verir ki, o gün uzaqda deyil...

*Asudə vaxt*

# “Xidmətdə dostuq, yarışda rəqib”



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinin mövqeyində olduğumuz zaman yaradılan sosial-məişət şəraiti ilə tanış olduq. Yataqxanadakı səliqə-sahman, təmizlik göz oxşayırdı. İstirahət otağında isə Vətənin keşiyində dayanan hərbi qulluqçular arasında maraqlı oyun gedirdi. Onlara yaxınlaşıb fikirlərini öyrənmək qərarına gəlirik.

Əsgər İsmayıl Quluzadə Vətənin keşiyində dayanmaq kimi müqəddəs vəzifənin öhdəsindən gəldiyindən qürur duyduğunu bildirdi. "Düşmənlə üzbəüz xidmət etmək böyük məsuliyyətdir. Atamın Qarabağ müharibəsinin iştirakçısı olması bu məsuliyyətimi ikiqat artırır. Hər zaman çalışıram ki, silahdaşlarıma yaxşı nümunə olum. Xidmətə gəldiyimiz ilk gündən komandirlərimizin diqqət və qayğısı ilə əhatə olunmuşuq. Savadlı, bacarıqlı və tələbkar zabitlərimizdən döyüş hazırlığı, silahlar haqqında biliklər mənimsəyirik. Onların səyi nəticəsində qorxmaz, mərd, cəsur döyüşçü kimi formalaşmışıq. Düşmənlə təmas xəttində yerləşən bölmələrin birində xidmət etməyimizə baxmayaraq, məişət şəraitimiz yüksək səviyyədədir. Bu cür şərait uğurlu xidmətimiz üçün müsbət təsir göstərir. Asudə vaxtımız da maraqlı keçir. Gördüyünüz kimi, dama, şahmat kimi stolüstü idman oyunları oynayır, qəzet və jurnallar oxuyur, Vətənimizdən, qəhrəmanlarımızdan bəhs edən filmlərə baxırıq."

- Gənc əsgər hazırlıq dövründən sonra burada xidmət edirəm, - deyə əsgər Murad İsmayılov söhbətimizə qoşuldu. - İlk dəfə növbəyə gedəndə çox həyəcanlı və narahat idim. Növbətçilik haqqında məlumatım olsa da, bu özümdən asılı deyildi. Komandirlərimiz ilk gündən deyirlər ki, daima ayıq-sayıq olmalıyıq, mütəmadi olaraq düşmənin bütün hərəkətləri haqqında məlumat verməliyik. Növbəyə çıxandan sonra anladım ki, bizim ani diqqətsizliyimiz düşməni sevindirə bilər. Buna heç bir Azərbaycan əsgəri razı deyil. Əksinə, biz düşməni törətdiklərinə görə peşman etməliyik. Onları ata-baba yurdumuzdan qovub çıxarmalıyıq. Bunun üçün komandirlərimizin öyrətdiklərini dərindən mənimsəyir, peşəkar döyüşçü kimi formalaşırıq. İndi hər birimiz torpaqlarımızı işğaldan azad etmək üçün döyüşə atılmağa hazırıq. İnanıram ki, bütün xalqımızın səbirsizliklə gözlədiyi qələbə müjdəsi uzaqda deyil. Mən də bu müqəddəs müharibədə qardaşımla çiyin-çiyinə vuruşacağımla qürur duyuram. Çox istəyirəm ki, Vətənimizin tarixinə düşməni törətdikləri vəhşiliklərə görə peşman edən ordunun qalib qardaşları kimi düşək.

Bölmədə olduğum zaman komandir-əsgər münasibətinin nə qədər möhkəm olmasını, şəxsi heyət arasında mehribanlığı, səmimiyyəti, ürəklərində olan Vətən sevgisini hiss etdim. Onların gözlərində düşmənə olan nifrətin nə qədər böyük olduğunu görməmək mümkün deyildi. Bir daha əmin oldum ki, Qarabağ həsrəti ilə xidmət edən bu oğullar tezliklə düşmən üzərində qələbə qazanaraq, xalqımızı sevindirəcəklər...

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə ordusu Suriyada şəhid verib



Türkiyə Silahlı Qüvvələrinin Suriyanın Azez bölgəsində antiterror əməliyyatlarında iştirak edən hərbi bölüklərindən biri PKK-YPG terrorçuların hücumuna məruz qalıb.

Nəticədə bir hərbçi şəhid olub, dördü yaralanıb. Yaralı hərbçilər Kılıç dövlət xəstəxanasına çatdırılıblar.

### İran ordusu yeni hava hücumundan müdafiə sistemini təqdim edib



Bu gün Tehranda iranlı mütəxəssislərin hazırladıqları "15 xordad" tipli hava hücumundan müdafiə sisteminin təqdimatı olub.

Təqdimat mərasimində İranın müdafiə naziri general Əmir Xatəmi çıxış edib. Nazir bildirib ki, bu sistem hücumçu qırıcı və pilotsuz uçan təyyarələri 150 kilometr məsafədə aşkar edərək, onları 120 kilometr məsafəyədək izləyə bilər. "15 xordad" tipli modern zenit raket sistemi, həmçinin gizlənən hədəfləri 85 kilometr məsafədə aşkar etmək və onları 45 kilometr məsafədə vurmaq qabiliyyətinə malikdir. Sistem eyni vaxtda altı hədəfi aşkar edə və izləyə, habelə altı hədəfə qarşı atış və məhvetmə əməliyyatını həyata keçirə bilər.

### Litvada NATO təlimləri başlanıb



Litvada 10 ölkədən 4 minədək hərbi qulluqçunun iştirakı və min vahiddən çox hərbi texnikanın cəlb edildiyi "Gelezinis Vilkas" irimiqyaslı manevrlər başlanıb. Bu barədə Litva ordusunun komandanlığı məlumat yayıb.

Təlimlərdə Litva ilə yanaşı, Belçika, Böyük Britaniya, Almaniya, Danimarka, Niderland, Norveç, Polşa, ABŞ, Çexiya və Estoniyanın hərbi qulluqçuları iştirak edirlər. Onların bir hissəsi NATO-nun Litvada toplu batalyonuna daxildir. İki həftə davam edəcək təlimlər Litva ordusunun Pabrade şəhərində yerləşən poliqonunda və Qayjyunay poliqonunda keçiriləcək.

### Yeni Zelandiya əsgərləri İraq və Əfqanıstandan çəkiləcək



İraq və Əfqanıstanda xidmət edən Yeni Zelandiya əsgərləri 2020-ci ildə mərhələli olaraq bu ölkələrdən çıxarılacaq.

Bunu Yeni Zelandiyanın Baş naziri Jacinda Ardern Nazirlər Kabinetinin iclasından sonra bildirib. Onun sözlərinə görə, İraq hərbçilərinə təlim verən Yeni Zelandiya əsgərləri 12 ay, Əfqanıstanda xidmət edən əsgərlər isə 18 ay ərzində geri çəkiləcək.

Baş nazir məlumatı dəqiqləşdirərək deyib ki, İraqdakı Yeni Zelandiya hərbçilərinin sayı bu ilin iyul ayında 75 nəfərə, gələn ilin yanvarda 45-nəfərədək azaldılacaq, iyun ayında isə əsgərlər ölkəni tam tərk edəcək. Əfqanıstandakı hərbi birliklərin son xidmət tarixi isə 2020-ci il dekabrın 31-dir.

### Ermənistan idmançısı son 10 ildə qazandığı bütün medallardan məhrum edilib



Ermənistan idmançısı Pirsima Xurşudyan ağır atletika üzrə 2008-ci ildə keçirilmiş Avropa çempionatında qazandığı medaldan məhrum edilib. Buna səbəb onun qanında aşkar edilmiş dopinq olub. Bu barədə Gürcüstan Ağır Atletika Federasiyası məlumat yayıb.

Məlumatda deyilir ki, erməni idmançının qazandığı qızıl medallar Gürcüstan təmsilçisi Anastasiya Qotfridə verilib. Bununla da A.Qotfrid ikiqat Avropa çempionu və dünya çempionu adlarına sahib olub. Məlumat üçün qeyd edək ki, P.Xurşudyan qanında aşkar olunan dopinqə görə, son 10 ildə qazandığı bütün medallardan məhrum edilib.

**AZƏRTAC-ın materialları əsasında**

*Ovqat*

# Gənc əsgərlər ekskursiyada olublar

*Həyatın başaçılmaz qəribəlikləri, yaşantıların üzüdönüklüyü, insafın-mürvətin tükənməsi, atılan addımın məsuliyyətinin dərk edilməməsi bəzən illərlə bəzən də son nəfəsəcən qəhər yaradır. Bu qəhər hansı səbəbdən olursa-olsun, ata-ana qayğısından məhrum olan uşaqların gündüzlər düşüncələrində, gecələr yuxularındadı.*



Qohum-əqrəba nəvazişi də, dövlətin bu məqsədə xidmət edən müəssisəsinin əməkdaşlarının can yandırması da onların könül ağrılarını, qəlb sızıltılarını azalda bilmir; belə uşaqlar üzə vurmasalar da sızıltıları, ağrı-acıları hamıdan gizlin yaşayırlar...

Qəhər, dərd bölüşüləndə insan yüngülləşir...

Xalq şairi Bəxtiyar Vahabzadənin "Atılmışlar" poeması mənim də düşüncələrimi silkələmişdi. Yeganə təsəllini mən də yaşamışdım: atılmışlar dövlətin himayəsində yaşayır. Bu, kiminsə, kimlərinsə bağışlanmaz günahının yaşam istəyini sızlada bilmir...

Digərləri kimi, Vətənin hansı müqəddəslik mərtəbəsində yaşadılmalı olduğunu bu və ya digər səbəbdən dövlət himayəsində böyüyənlər də dərk edirlər. Digər həmyaşıdları kimi onlar da vətəndaş olaraq vaxtında Vətən borcunu yerinə yetirməyə çağırılırlar. Bu borc hərbi xidmətdir. Şəxsiyyət vəsiqəsi alana kimi tək olmadıqlarını, ictimaiyyətin onlara ehtiram göstərdiyini hiss ediblər. Onlar duyğusal münasibətlə hərbi xidmətə başlayanda da əhatələnirlər. Onlar da Hərbi and içəcəklər. Bu əlamətdar gündə onları təbrikə gələn əzizi olmayacaq. O ağrılı məqamı hərbi hissələrin komandanlığı duyğusallıqla qabaqlayır: bu və ya digər tədbir "Sizin hər biriniz hər birimiz üçün əzizsiniz. Biz yanınızdayıq!", - kəlmələrini ruhən əvəzləyir.

"N" hərbi hissəsində də gənc əsgərlər haqqında müfəssəl məlumatlar öyrənilir. Bu, hərbi hissədə mənəvi-psixoloji hazırlıq prosesində olduqca gərəkli olur. Öyrənilənlər sistemləşdirilir. Valideyn himayəsindən məhrumluqla böyüyən gənc əsgərlər ayrıca qrup kimi qanun, konstitusiya həddində xüsusi qayğıya cəlb olunurlar; xüsusi qayğı onlara doğmalıq duyğuları aşılamaqdır.

Bu günlərdə "N" hərbi hissəsində xidmətə başlayan gənc əsgərlər Gəncə Mərkəzləşdirilmiş kitabxana sisteminin və hərbi hissənin birgə təşkilatçılığı ilə Göygölə və Maralgölə ekskursiyaya aparılıb. Leytenant Orxan Bayramovun rəhbərliyiylə həyata keçirilən ekskursiya gənc əsgərlərə gözəl könül xoşluğu yaşadıb. İlk baxışda adi görünən bu qeyri-adi tədbir bəşəri duyğuların yaşarlığının təsdiqi gücündədir. Bu tədbiri "qırıq könüllərin ziyarəti" bilmək suç deyil.

Mərkəzləşdirilmiş kitabxana sisteminin şöbə müdiri Elnarə Hüseynova vətəndaşlıq borcuna söykənən bu tədbirin doğmalıq duyğusunun gənc əsgərlərin həm də vətəndaş olaraq formalaşmasında olduqca əhəmiyyətli olduğunu qeyd etdi.

Mayor Fəxrəddin Əhmədov bu tədbirin gənc əsgərlərin mənəvi-psixoloji hazırlığına müsbət təsiri olacağına əminliyini bildirdi.

Gənc əsgərlərdən Rafiq Hacıyev, Cəfər Seyfullayev bildirdilər ki, zamanında dövlətin himayəsində böyüyüblər. Dövlətin qayğısını heç zaman unutmayacaqlar. Bu tədbiri də hərbi hissənin komandanlığının timsalında dövlətin qayğısı bilirik.

...Təbiət bir-birini tamamlayan gözəlliklərini sevdirir, ürəyə yük olan qayğıları da, düşüncələrdən üzülməyən qəhəri də unutdurur. Gənc əsgərlər Göygölün, Maralgölün gözəlliklərini gözlərinə, gözlərindən ürəklərinə köçürüblər, şübhəsiz.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# Özüyeriyən artilleriya qurğusu ATMOS 2000



İsrail istehsallı 155 mm-lik özüyeriyən artilleriya qurğusu ATMOS 2000 Tatra T815 VVN 6x6 şassisində quraşdırılıb və düşmənin canlı qüvvəsini, artilleriya batareyalarını, dzotlarını məhv etmək, həmçinin mina sahələrindən keçməyi təmin etmək üçün nəzərdə tutulub. Artilleriya qurğusunun hazırlanması Soltam firmasının şəxsi təşəbbüsü ilə həyata keçirilib və ilk dəfə İsrail ordusu tərəfindən 2006-cı ildə sınağı həyata keçirilib. 2017-ci ilin mayında onun lülə artilleriyasının "ağıllı raketlərlə" əvəz edilməsi məsələsi irəli sürülüb. Nəticədə isə həmin ildə Elbit Systems şirkəti ilə M109 sistemini əvəz etmək üçün haubitsaların hazırlanması üzrə kontrakt bağlanıb. Onun artilleriya hissəsi lüləsinin uzunluğu 52 kalibrli 155 mm-lik Soltam ATHOS 2052 haubitsası ilə təqdim edilib. Bu haubitsa 155 mm-lik NATO mərmisinin bütün assortimenti kimi istifadə edilə bilər. Onun 30 kilometrə qədər maksimal atəş uzaqlığı adi mərmilərlə, 41 kilometrə qədər isə reaktiv mühərriklə yerinə yetirilir. Maksimal atəş tezliyi dəqiqədə 4-9 atəş təşkil edir. Artilleriya qurğusunun əsas kompleksi Tatra T815 VVN 6x6 zirehli kabinəli yük maşınıdır. Hətta bu kompleks hərbi nəqliyyat S-130 Herkules təyyarəsində də daşına bilər. Elə variantlar da vardır ki, onu daha kiçik 155 mm-lik Soltam (39 və 45 kalibrli) və sovet istehsallı 130 mm-lik M-46 haubitsalarında (hansı ki, 15 saniyə ərzində 3 mərmi) ata bilər.



**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində nizamnamədənkənar münasibətlər zəminində daha bir cinayət hadisəsi baş verib.

6-cı dağ-atıcı alayın əsgəri xidmət yoldaşına qarşı təhqiramiz və alçaldıcı ifadələr işlətdiyinə görə aralarında mübahisə baş verib. Təhqirlərə dözməyən əsgər xidmət yoldaşı Artur Aruyana bədən xəsarətləri yetirməklə çənəsini sındırıb.

Faktla bağlı araşdırma aparılır. A.Aruyan isə Xankəndidəki hərbi hospitala yerləşdirilib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində nizamnamədənkənar münasibətlər zəminində iki əsgər arasında baş verən mübahisə, sonradan davaya çevrilib. Hadisə nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alan erməni hərbi qulluqçu Ardahak Vartanyan tibb məntəqəsinə göndərilib. Ona ilkin tibbi yardım göstərdikdən sonra hərbi hissənin zabiti D.Əmiryan hadisə barədə hərbi polisə məruzə edib.

Faktla bağlı cinayət işi açılıb və A.Vartanyanın döyülməsində şübhəli bilinən daha üç hərbi qulluqçudan izahat alınıb. Araşdırma davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində müxtəlif xəstəliklərə yoluxma halları çoxalmaqda davam edir. Bu günlərdə müalicəyə göndərilməyən daha bir əsgərin - C.Ğazaryanın valideynləri Ermənistan Müdafiə Nazirliyinə şikayət ediblər.

İşğalçı ordunun əsgəri xəstələndiyi üçün bir neçə dəfə komandanlığa müraciət etsə də, müalicəyə göndərilməyib. Əlacsız qalan hərbi qulluqçu bu barədə valideynlərinə məlumat çatdırıb. Onun valideynləri Müdafiə Nazirliyinə şikayət etdikdən sonra C.Ğazaryan müalicə müəssisəsinə göndərilib və onu vaxtında həkimə təqdim etməyən zabit isə cəzalandırılıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində məşğələ zamanı ehtiyatsızlıq səbəbindən hadisə baş verib.

3-cü dağ-atıcı taborun əsgərləri məşğələ keçərkən təhlükəsizlik qaydalarının kobud surətdə pozulması nəticəsində qumbara partlayıb. Hadisə nəticəsində bir neçə əsgər yüngül xəsarətlər alıb. Tibb məntəqəsində onlara yardım göstərildikdən sonra xidmət yerlərinə göndəriliblər. Ağır xəsarət alan əsgər Suren Tumanyan isə hərbi hospitala yerləşdirilib.

Faktla bağlı cinayət işi açılıb və hadisə ilə bağlı 2 zabit istintaqa cəlb olunub.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 446
Nüsxə 3950